NIYAZI ƏLIKRAM OĞLU

# ALIN YAZISI

B A K I - 2 0 0 8

# 50

# Il ömürdən keçdi

Niyazi Əlikram oğlu Həsənov.
Alın yazısı (şeirlər) Bakı:"Bakı Universiteti" nəşriyyatı, 2008.- 126 səh.

***«Alın yazısı» Niyazi Həsənovun üçüncü şer toplusudur.***

***Nizayi Həsənov Azərbaycan Dövlət Iqtisad Universitetinin müəllimi – iqtisadçı alimdir. O, eyni zamanda Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.***

***Kitabda şairin müxtəlif mövzularda yazdığı şerləri verilib.***

***Həyata və təbiətə bəsarət gözü ilə baxışlarından yaranan, Anaya, Vətənə, Millətə sevgi, saf və təmiz məhəbbətin tərənnümü, buradakı şerlərin əsas qayəsini təşkil edir.***

$$\frac{4803060210-00}{658(07)-047}-47-2004$$

**© "Bakı Universiteti" -2008**

**© Niyazi Həsənov -2008**

## ÖN SÖZ ƏVƏZI

***Hər bir insan bu dünyada öz ömrünü yaşayır və çox vaxt yaşadığı ömrünü nəyəsə həsr edir. Mənalı yaşanan ömür əlbəttə ki, böyük xoşbəxtlikdir.***

***Yaradıcı insanların həyatında doğulan hər bir yeni fikir, ürəkdən qəlbə, qəlbdən qələmə sızan hər bir yeni şer və bu şerlərin cəmindən ərsəyə gələn yeni kitab çap olunub hazır olduğu o gün, insanı qeyri-adi mənəvi hisslər yaşamağa vadar edir. Bu baxımdan daha da təkmilləşmiş olan bu kitab mənim həyatımda ən önəmli hadisələrdən biridir.***

***Dünyaya baxışım, ruhum, əqidəm, tərbiyəm, hisslərim, bu günkü həyatın, məni heyrətə gətirə billəcək zamanda özümdən asılı olmayaraq yeni bir şer yaranır və bu şerlərin nədənsə hamısı heca vəznində olur. Mən həmən şeri o an bir yerə yazdımsa deməli, o şer yaşadı, yox əgər yaza bilmədimsə deməli, yaddan***

***çıxıb gedəcək. O anları mən hissələrimin oyanışı adlandırıram.***

***Mən ixtisasca ali məktəb müəllimiyəm. Əgər mənim yazdığım bu şerlər, oxucularımdan kiminsə mənəviyyatının inkişafında cüzi rol oynayarsa özümü xoşbəxt sanaram.***

***Şeri oxumaq və dərk etmək hər adama nəsib olmasa da hesab edirəm ki, onu yazmaq və oxumaq insana böyük həzz verir. Özünüzü bu həzzdən məhrum etməyin.***

***Hörmətlə, Müəllif***

***Allahın verdiyi hər ilə, aya, günə, saata, dəqiqəyə шüкür!***

## 50 il GƏLDI

Bir də baxdım, ömrüm əlliyə çatdım,
Sual verdim, nə itirdim, nə tapdım?
Hey çalışdım, aliliyə can atdım,
Fırtına tək, hislərimi oyatdım!

Əlli yaşa, salam olsun deyirəm,
Gəldiyinə, gözlərindən öpürəm.
Əllini də, balam kimi sevirəm,
Şükür sənə, ey Allahım deyirəm!

Bəşərdəki hər nə varsa, anidir,
Düşünəndə, bu ömrümüz fanidir.
Könlüm inan, öz ömründən qanidir,
Indi yaşım, inan mənim əllidir!

## QOCALMAQ ISTƏMIRƏM

Gəncliyim ömrümün şirin çağıydı,
Əhvalım elə bil çiçək bağıydı.
Gənclik ömürümün zirvə anıydı,
Ey tanrım, qocalmaq istəmirəm mən!

Günlərim bilmədən, gəldi ötüşdü,
Bəzən də həyatla ölüm öpüşdü.
Ömrüm arzum üçün hər gün döyüşdü,
Ey tanrım, qocalmaq istəmirəm mən!

Çalışdım, çarpışdım orta yaşımda,
Ömrün qarı gəzir indi başım da.
Bir qorxu gizlənib bu təlaşımda,
Ey tanrım, qocalmaq istəmirəm mən!

Gəlib payızına çatdı ömür də,
Düşdü məcrasına səsim, sözüm də,
Ürəyin istəyi, dondu gözümdə,
Ey tanrım, qocalmaq istəmirəm mən!

Heç kəs istəməz ki, ömrü paslana,
Qocalıq məzara bir növ astana.
Belə son qoyulur neçə dastana,
Ey tanrım, qocalmaq istəmirəm mən!

## ILLƏR

Ömür indi az qaldı,
Saçlarıma ağ saldı.
Əzablarım çoxaldı,
Illər, bir az rəhm edin!

Üzdü məni qayğılar,
Ağırlaşdı duyğular,
Ərşə çıxdı yuxular,
Illər, bir az rəhm edin!

Özümə əks getmədim,
Çox arzuma yetmədim,
Dumanlarda itmədim,
Illər, bir az rəhm edin!

Ömür muncuğa bənzər,
Sapına günlər düzər,
Ağıl insanı bəzər,
Illər, bir az rəhm edin!

Illəri qınamayın,
Dostları unutmayın,
Günləri sanamayın –
Illər, bir az rəhm edin!

## BIR DAHA QAYITMAZ

Gəncliyim ömrümə məziyyət idi,
Məhəbbət ən qaynar  vəziyyət idi.
Acılı, şirinli əziyyət idi,
Bir daha qayıtmaz on səkkiz yaşım!

On səkkiz yaşıma çatdığım zaman,
Ilkin sevgim oldu qəlbimə daman.
Həyat istəyimə vermədi aman,
Bir daha qayıtmaz on səkkiz yaşım!

Dənizi o imiş, hər nadincliyin,
Axıb töküldükcə qalar dincliyin.
Demə zirvəsiymiş odlu gəncliyin,
Bir daha qayıtmaz on səkkiz yaşım!

Ömür əmanətdir, həyat sonsuzdur,
Həyatın qanunu sərt, amansızdır.
Taledən qaçmaq de, nə gümansızdır,
Bir daha qayıtmaz on səkkiz yaşım!

Nahaqdan yalvarma sən heç Allaha,
Bu ömrün təkrarı olmaz bir daha.
Qaytarmaz səni o, keçən sabaha,
Bir daha qayıtmaz on səkkiz yaşım!

## QONAĞAM MƏN

Qəm yedim dünyanın zərbələrindən,
Həzz aldım xoşbəxt keçən illərindən.
İylədim həyatın tər güllərindən,
Çün dünyada yazıq bir qonağam mən!

İllərimə il gəldikcə soluram,
İldən-ilə yaşlanıram, doluram.
Kövrəlirəm uşaq kimi oluram,
Çün dünyada yazıq bir qonağam mən!

Niyazi, demə ki, ömrün hədərdi,
Kitabların az ömrünə bəhərdi.
Oğlun sənin həyatına gövhərdi,
Çün dünyada yazıq bir qonağam mən!

# Müqəddəs Ana

# və ən əzizlər

## QAYITSAN ANA

Dünyada anaya həsrət olmuşam,
Anasız, günəşsiz yetim qalmışam.
Ətrini bahardan, yazdan almışam,
Bəlkə bir anlığa gələsən, ana!

Dünyalar saçının telinə qurban,
Laylalar söyləyən dilinə qurban.
Səsinin bəminə, zilinə qurban,
Bəlkə bir anlığa gələsən, ana!

Bu həyat mənasız axındır, bildim,
Ana hər doğmadan yaxındır, bildim.
Tacındır, taxtındır, şahındır, bildim,
Bəlkə bir anlığa gələsən, ana!

Analı dünyamı saxlamaq üçün,
Sinə dağlarımı dağlamaq üçün,
Məni bu dünyaya bağlamaq üçün,
Bəlkə bir anlığa gələsən, ana!

Indi nəvələrin səni anırlar,
Cəzalananda bəzən ağlayırlar.
Nənə-nənə deyib, hey çağırırlar,
Bəlkə bir anlığa gələsən, ana!

## ANASIZ

Həyatın amalı, nurudu ana,
Dünyada bir kimsə tay olmaz ona,
Bu haqqı hər nankor, hər nadan qana,
Anasız nə qədər boş imiş həyat!

Bala nübarına çatdı həyatı,
Ömrümü, günümü nura boyadı.
Dilimi bəzədi layla, bayatı,
Anasız nə qədər boş imiş həyat!

Çatdırdı yollara o ayağımı,
Yaddaşda oyatdı gənclik çağımı.
Yandırdı o mənim od ocağımı,
Anasız nə qədər boş imiş həyat!

Ana, insan ömründə təməl, özəksən,
Hər övlad ömrünə sahman, düzəksən.
Bildim ki, ömrümə nursan, bəzəksən,
Anasız nə qədər boş imiş həyat!

Dünyanın ləzzəti səninlə getdi,
Yetimlik ağacı bağımda bitdi.
Həyatım anasız qış kimi ötdü,
Anasız nə qədər boş imiş həyat!

Ömrümün bağına yağdı dolu, qar,
Xəyala çevrildi o güllü bahar.
Indi də şəfəqi qəlbimə axar –
Anasız  nə qədər boş imiş həyat!

Baxıram dünyaya bir nemət kimi,
Baxıram  həyata bir möhlət kimi.
Baxıram anaya bir ziynət kimi,
Anasız nə qədər boş imiş həyat!

## ANA BAĞIŞLAR

Qopsa da nə qədər tufanlar, yellər,
Qopmaz balasına bağlanan tellər.
Daş-qalaq etsə də kimisə ellər,
Onu bu dünyada ana bağışlar.

Isidər hər kəsi ana ürəyi,
Bu həyat nəğməsi, ana diləyi.
Dünyanın mərkəzi ana ürəyi,
Vətənə adını ana bağışlar.

Dünyada hər kəsə, ən yaxın insan,
Məhəbbəti ilə yaşayır cahan.
Olmasa inan ki, dayanar zaman,
Hər kəsin anası, onu bağışlar.

## ANA – MÜƏLLIMƏYƏ

Ömrümdə ömrünün hərarəti var,
Günəşə döndün ki, uçsun ayazım.
Yanımda  ana tək, şərafətin var,
A mənim ağ günlüm – saçı bəyazım.

O günəş şəfqətli, məlhəm baxışdan,
Uzandı günəşə, bizim qolumuz.
Müqəddəs alnına, düşən qırışdan,
Başladı işıqlı, həyat yolumuz.

Çox vaxt sönənsə də, kənd işıqları,
Bizlərə qəlbində, sən məşəl tapdın.
Uçdu bir yuvadan, kənd uşaqları,
Hər kəsə bir peşə yoğurdun, yapdın.

Bizlərdən ayrılmaq, sanma kədərdi,
Bağlıdır hər qəlbə, hər zaman adın.
Elə şagirdinin sayı qədərdi,
Sənin arzuların, sənin övladın.

Dünən də, bu gün də, sabah da inan,
Sənsiz   olmayacaq, anlayır qanan.
Müəllim adını, veribdir zaman,
Ana müəlliməm,  qəlbi  nur saçan!

## QARDAŞ

Çox bacılar, həsrətinə alovlanıb,
Qardaş var ki, bu dünyada tənha qalıb.
Qardaşımdır qəlbdə cürət, qolda  qüvvət,
Yox qardaşdan, bu dünyada böyük nemət!

Bu dünyada, qardaşını satan da var,
Vardan ötrü, onu yox tək atan da var...
Qardaş var ki, qardaşına qalıb həsrət,
Yox qardaşdan, bu dünyada böyük nemət!

Bacıların fərəhidir, uğurudur,
Ürəyini dağ eyləyən, qürurudur.
Bacılar da qardaşlara namus, qeyrət,
Yox qardaşdan, bu dünyada böyük nemət!

Yalan sözlə, qardaşından küsən də var,
Haq-salamı, birdəfəlik kəsən də var.
Varlığı bir qüvvət, yaradana heyrət,
Yox qardaşdan, bu dünyada böyük nemət!

Dilimin sözü, ocağın közü qardaş,
Bil ki, ondan yox, hər kəsə yaxın sirdaş.
Odur həyatda var dövlət, zinyət, sərvət,
Yox qardaşdan, bu dünyada böyük nemət!

## CANIM DƏDƏ

Balamda yaşayır, dədəmin adı,
Hər kəsə əzizdir, onun övladı.
Gərək təzələnə, dünyanın dadı,
Sən mənim canımsan, qanımsan, dədə!

Sən mənə, həyatı bağışlamısan,
Hər kiçik uğrumu alqışlamısan.
Ömrümə baharı, naxışlamısan,
Sən nurlu səhərim, danımsan, dədə!

Adını qoymuşuq, adınla qalaq,
Həyata qeyrətli izini salaq,
Cahanda ömrümüz, ömrünə calaq,
Dünyada hər təzə anımsan, dədə!

## DUSTAQ ANASI

Ana alaraq, öz təqaüdini,
Topladı allahın hər nemətini.
Yığaraq zəmbilə, yollandı yola,
Zindana gedirdi, kədərli belə.

Qəlbi fikirliydi, gözləri yaşlı,
Döyüşdə qalmışdı indi tək başlı.
Qoca bir nənədir o, indi yaşlı,
Oğul lazım ona ağıllı – başlı.

Anadır, borcunu başa düşür o,
Övladın dərdindən, odda bişir o.
Düşün sən ki, göydən yerə düşür o,
Goru iynə ilə, indi eşir o.

Yaylığın açaraq, bir neçə manat,
Qazamatçıya yalvarıb amanat:
«Bu pulları da siz verin oğluma,
Çox korluq verməsin oğlum qarnına».

Analar dünyanın, bir nemətidir,
Oğullar ananın, bir qiymətidir.
Anaya xor baxan, övlad dünyada,
Rahatlıq tapmaz o, heç o dünyada.

## ÜLKƏR

Həyat əsəri övladdır,
Allahdan o, sovqatdır.
Şirindir yaxşı, pisi,
Çünki odur nəslin izi.

Övlad vuran ürəkdir,
Övlad arzu diləkdir.
Bağındakı çiçəkdir,
Gül açdıqca göyçəkdir.

Gözündəki nurdur o,
Həyatında sirdir o,
Həm şahındı, həm tacın,
Həm qardaşın, həm bacın!

## NƏNƏMIN YARIMÇIQ TƏNDIRI QALDI

Nənəm, təzə təndir qurmaq istədi,
Ocağa təzə od, vurmaq istədi.
Təzə gəlinləri, yormaq istədi,
Nənəmin yarımçıq təndiri qaldı.

Ömürsə əbədi, deyildir axı,
Solmuşdur həyatın, o gülzar bağı.
Ürək təndirini, çatdı qış çağı,
Nənəmin yarımçıq təndiri qaldı.

Təndir həyatının, məna çağıydı,
Soyuyan ömrünün od-ocağıydı.
Amansız zamanə ona yağıydı,
Nənəmin yarımçıq təndiri qaldı.

Qurmaq istəyirdi, qura bilmədi,
Son istəyi başa, vura bilmədi,
Bir gün yuxusundan, dura bilmədi,
Nənəmin yarımçıq təndiri qaldı.

Gözümdən həsrətin yaşları axdı,
Axır ki, əcəlin şimşəyi çaxdı.
Ən son arzusu, bax yandırdı-yaxdı,

Nənəmin yarımçıq təndiri qaldı.

## BABAM

Bir el atasına, dönübdü babam,
Xoş söz-söhbətindən, dərs alıb obam.
Üzündə, gözündə yazından təpər,
Ağ saçlar keçmişdən, gələn min xəbər.

Insan qocalanda, olur uşaq tək,
Ağarmış tellərə, gəlin gül səpək.
Ömrün qürubuna, o qəlbi kövrək,
Çatıbdır, biz onun saçından öpək.

Yolunu çox vədə, alıbdı duman,
Çətin sınaqlardan, qalib çıxıb o.
Elin göz yaşını, silib hər zaman,
Nə ürək sındırıb, nə qəlb yıxıb o.

## SEVDA

***Gənc yaşlarında dünyasını dəyişmiş bibim qızına ithaf edirəm.***

Bir bahar çevrildin, sən bir sevdaya,
Belə zülm gəlməz heç vaxt dünyaya.
Gündüzün çevrilib bir gecə oldu,
Bilmədik bu bəla heç necə oldu?

Övladlar kiməsə «ana» deyəcək,
Belə ki,  ögeylik qapı döyəcək.
Qızın toy gecəsi  gözün süzəcək,
Anasız qəlbləri kədər üzəcək.

Anan da hər gecə anacaq səni,
Beləcə düşəcək saçının dəni.
Əyildi atanın, o şax  qaməti,
Sənə bağlı qalıb saf məhəbbəti.

Sən incə gül idin bahar çağında,
Qönçə ikən soldun öz budağında.
Ərin də evlənər inan bir zaman,

Onun başı üstün alar çən, duman.
Sən bir kədər oldun bizə cahanda,
Övladlar böyüyər o yan-bu yanda.
Bölündük ikiyə fələk sayanda,
Parlaya bilmədin bu asimanda.

# ƏSL INSAN

***Mərhum professor Səfiyar Musayevin***
***əziz xatirəsinə***

Həqiqət uğrunda hər an döyüşdün,
Yox, yox, sən ölmədin, dünya dəyişdin.
Polad sınar, lakin əyilməz dedin,
Tarixi həqiqət olmuşdu eşqin.

Heç zaman, heç kəsin, olmadın yadı,
Insantək yaşadın sən bu həyatı,
Bilirik, ellərdən qazandın adı,
Yaşadar insanı öz adı, sanı.

Həmişə el üçün çalışanların,
Böyük amallara can atanların,
Sən tək el yolunda alışanların,
Cənnətdir, haqq üçün vuruşanların.

Məqsədi olanlar çaşmaz, yanılmaz,
Insana doğmalar ögey sanılmaz.
Dünyada haqq işi heç vaxt boğulmaz,

Ilqarın, Vüqarın  heç vaxt danılmaz.
Heç vaxt darıxmasın, oğlun, övladın,
Yaşayır soyadın, qeyrətli adın.
Ey Səfiyar müəllim, unudulmadın,
Tarixdə qalacaq, təmiz, saf adın.

## VAXTSIZ ÖLÜM

*(Vaxtsız ölmüş dostum*
*Əlzaminə ithaf olunur)*

Üzülübdü, ürəyimin telləri,
Gözüm yaşı, xatırladır selləri.
Mən axtardım o qərənfil gülləri,
Niyə vaxtsız sən tərk etdin bizləri.

Beləcə seyrəlir dostların sayı,
Dostlardır dünyanın ən gözəl payı.
Bir iş olsa, gəlir onların hayı,
Düşündükcə əsir könlümün yayı.

Əsl dostlar öz dostundan toy umub,
Niyə tanrı gənc ömrünə vay qıyıb,
Cavan ikən bu həyata göz yumub,
Sənin köçün biz dostlara dağ qoyub.

Dost ölümü dostlar üçün fağırlıq,
Dost itkisi ürəklərə əzablıq,
Dost vidası çiyinlərdə ağırlıq,

Bil, yaşamaq əsil dostsuz yazıqlıq.
Bilirəm ki, birdə geri gəlmərsən,
Söz deyibə, birdə elə gülmərsən.
Öz qızını  bir də heç vaxt öpmərsən,
Tər qönçə vaxtını, onun, görmərsən.

***Müгəddəs Vətəнim,***

***гədim dilim,***

***ulu torpağыm!***

## AZƏRBAYCANIM

Qürurum  Şah dağından ucadır, uca,
Yaşım Qobustandan qocadır, qoca.
Ey mənim vətənim – Azərbaycanım,
Həm sənin, həm mənim – Azərbaycanım!

Başımda buludlar səddi, nə səddi,
Zaman sınaqlara çəkdi, nə çəkdi.
Igidlər ərənim – Azərbaycanım,
Həm sənin, həm mənim – Azərbaycanım!

Ulu torpağımda yoxdu, nə yoxdu?
Yurduma göz tikən çoxdu, nə çoxdu.
Bar verir hər dənim – Azərbaycanım,
Həm sənin, həm mənim Azərbaycanım!

Sayıq övladların çoxdu, nə çoxdu,
Tanrı neymətindən de hansı yoxdu?
Mənim canım, qanım Azərbaycanım,
Həm sənin, həm mənim -Azərbaycanım!

Qalalar  bu günə yetən daşdı, daş,
Balalar vətənə vətəndaşdı, daş,
Qranit təməlim – Azərbaycanım,
Həm sənin, həm mənim – Azərbaycanım!

## TORPAQ ÇAĞIRIR

Vətən, sənin varlığına qurbanam,
Sən olmasan, mən də inan olmaram,
Vətən, səni yad əllərdə qoymaram,
Torpaq bizi, köməyinə çağırır!

Qəm yemə ey ulu torpaq, dağ, dərə,
Üz tutaram igidlərə, nərlərə,
Indi lazım  hər bir haray, hər nərə,
Torpaq bizi, köməyinə çağırır!

Sözlərimi yozub-yozub, əzmə gəl,
Dərd böyükdür, sən bu dərdə dözmə gəl,
Vaxt ötüşür, vətən gedir, gəzmə gəl,
Torpaq bizi, köməyinə çağırır!

Qoyma gözüm, ağlamaqdan kor olsun,
Torpaq getsə, hamımıza ar olsun,
Birləşəyin, allah bizə yar olsun,
Torpaq bizi köməyinə çağırır!

Gün gələcək, güləcəksən sən, Vətən!
Dost-düşməni, biləcəksən sən, Vətən!
Canım, ruhum, varlığımsan sən, Vətən!
Torpaq bizi, köməyinə çağırır!

# YAĞI TORPAĞIMDAN QOVULACAQMI ?

Hər kəsə bəlli bir qisasımız var,
Tanrıya bağlanan gümanımız var,
Başımız üstündə dumanımız var,
Bilməm qara duman, sovuşacaqmı?!

Oğurluq, yaltaqlıq hünər sayılır,
Vəba tək, bu elə-yurda yayılır.
Bil ki, biz yatdıqca düşmən ayılır,
Köçkünlər yurduna, qovuşacaqmı?!

Torpaq düşməndədir, vicdan çarmıxda,
Qalib igidlərin papağı mıxda.
Ayağında qandal, ağzında noxta,
Yağı torpağımdan, qovulacaqmı?!

## VƏTƏNI  XOŞBƏXT GÖRƏK

Düşməsin xəzana elin baharı,
Eşqi, məhəbbəti təzə-tər  görək.
Məhsuldar qoy olsun, elin bəhəri –
Vətəni həmişə, bəxtəvər görək!

Xalqımın  süfrəsi, bərəkət saça,
Bayrağı mənimçün,  ucadan uca.
Inanmam düşmənə, kimsə qəlb aça,
Tanrım qoymaz, xalqdan bərəkət qaça!

Qoy gülsün bənizlər, sevinsin ellər,
Qəlblərdə  kök atsın, ədalət, sevinc.
Hər yanı bəzəsin güllər, çiçəklər,
Yaşasın Vətənim,  daim xoşbəxt, dinc!

## QARDAŞLAR

Bir evi bəlkə də dağıtmaq olar,
Bir eli məhv etmək çətindir, çətin.
Millət bir olarsa, daima qalar,
Amacı qardaşlıq olsa millətin!

Türkük, yer üzündə yaşayırıq biz,
Qurub - yaratmaqla keçir ömrümüz.
Nə qədər bir olsaq, bizim xeyrimiz,
Heç vaxt soyumasın işdən əlimiz!

Düşmən pusqudadır, daim düşünək,
Işi elə quraq, daim birləşək.
Biri ağlayanda, onu güldürək,
Birlikdə hamımız daim sevinək!

Sən mənə kömək et, məndə ki sənə,
Türk – türkün əlindən tutsa savabdı,
Qardaşlıq və birlik böyük xəzinə,
Inkişaf birliyə, bil ki, cavabdı!

Yurdumun dəyərli çox kişiləri,
Dünyasın dəyişib, getdilər nakam.
Türklərin bu günki arzu işləri,
Gələcək bizimdir, bilirəm tamam!

Türkiyə, Azərbaycan  daim yaşa!
Hər yerdə adınız çəkilsin qoşa!
Ikiniz dünyada verib baş – başa,
Həyatda çevrilin əsil qardaşa!

## BIRLIK

Bəzən ürəklərdə, sual yaranır,
Niyə bəzisinin ömrü dardadı?
Niyə yaş qurunun, oduna yanır,
Varsa da, insanın gücü hardadı?

Tək qalıb, heç kəsin qəlbi  dolmasın,
Canavar tək  qalsa, o yalqızlaşar.
Ormanda ağac da, tənha qalmasın,
Tənhasa ürəklər, de  necə yaşar?

Poladı  sındırar, əllər bir olsa,
Daim təklənəni, döyüblər axı.
Dağ yıxar, şah qovar ellər bir olsa,
El gücü, sel gücü deyiblər axı.

## 20 YANVAR

Böyük qardaş, axır üzə ağ oldu,
Qərənfildən, neçə qanlı bağ oldu,
Bir millətin, sinəsinə dağ oldu,
Iyirmisi yanvar, məşhər günümüz!

Tank altında, neçə həyat üyündü,
Düşmən isə, əməlindən öyündu.
Mənim könlüm, parça-parça söküldü,
Iyirmisi  yanvar, məşhər günümüz!

O günləri, yada salıb dinmirəm,
Igidləri, ön sıradan silmirəm,
Şəhidləri, axı ölmüş bilmirəm,
Iyirmisi yanvar, məşhər günümüz!

Içimdəki ağrılara, dözmürəm,
Ümüdümü, bir Allahdan üzmürəm.
Qisas üçün, mən kənarda gəzmirəm,
Iyirmisi yanvar, məşhər günümüz!

Ana südü, ölənlərə halaldır,
Sizin qeyrət, bizim üçün amaldır,
Şəhid ömrü, bir örnəkdi, təməldir,
Iyirmisi yanvar, məşhər günümüz!

## SÖZÜN QIYMƏTI

Sözünün davamlı, qiyməti artar,
Sözün yerindəsə, hər kəsə çatar.
Şah olub ürəyə, yaddaşda qalar,
Sözsüz ki, hər sözün yerini bilsən.

Ömür hər insana verilən andı,
Qiymətli dünyada bil ki, zamandı.
Əqlin duyduğu, zamanında gümandı,
Sözsüz ki, sən onun qədrini bilsən.

Xoşbəxtlik səbətdə, düşməz ki, göydən,
Arzuya çatmagın, aslıdı səydən.
Dünya həzdir,  qardaş, düşsən də heydən,
Sözsüz ki, bunları sən duya bilsən!

## DIL

Ağızın bir parça, gövhəridi o,
Hər sözün, söhbətin məhvəridi o.
Ana dodağından, alar sözünü,
Idrakın meyarı, edər özünü.

Hisləri, çay kimi axıdan odur,
Nifrət güc gələndə, kəsər olur o.
Insanı sevgiylə, oxudan odur,
Şəfqət güc gələndə, əsər olur o.

Bütün ülfətlərin, odur özəyi,
Acı söz tikanı, xoş söz gülüdür.
Həmişə, hər yerdə gücü, bəzəyi,
Süd ilə yoğrulmuş ana dilidir!..

## ZƏLIMXAN ŞER DEYIR

Şaxdada görsən ki, çiçək, gül açır,
Qayalardan sular, dinməzcə axır,
Bülbüllər susaraq, məətəlcə baxır,
Demək ki, şer deyir, şair Zəlimxan!

Tufan bir anlığa, öz səsin alsa,
Dənizin dalğası, görünməz olsa,
Bütün kainatın, nəfəsi donsa,
Demək ki, şer deyir, şair Zəlimxan!

Ən daş ürəklidən, göz yaşı axsa,
Nadan da dünyaya aqil tək baxsa,
Sehirli sözlərdən, möcüzə varsa,
Demək ki, şer deyir, şair Zəlimxan!

Insanın vücudu, közdə yanırsa,
Kəsilməz əlindən, qanı axırsa,
Niyə ağrıtmayır, anlamayırsa,
Demək ki, şer deyir, şair Zəlimxan!

Buna bir möcüzə, sehir mi deyim,
Sinəsi bir dərya, ümmanmı deyim,
Aqilmi, loğmanmı, ustadmı deyim,
Tanrı sevdiyini, dahi şair deyim!

## BAHAR

Tamam başqa dadı var, bahar suyunun,
Baharda dadı da, dəyişir quyunun.
Cağladıgca bulağın, hər zərrəsindən,
Bil xəbərdardı, torpağın bəhrəsindən.

Həyat təməli günəş, torpaq, su, hava,
Bahar gələndə bil, çox quş qurar yuva.
Bax, yaşıllaşar, abadlaşar el-oba,
Təmizlənər, yığışar qızdıran soba.

Günəş sevinər, gür yanar-alovlanar,
Hər kəsin içindən, bir isti boylanar.
Bahardır, bütün canlı bunu bil, duyar,
Cavan qızlar da, çəpərlərdən boylanar.

Ruhdan ruh inciməz heç, bahar gələndə,
Güldən bülbül inciməz, həyat güləndə.
Qəlblərdə oynayar bil, sevgi məhəbbət,
Toylara hazır olar, hər bir cəmiyyət.

Bax, həyatə axışar, qızlar oğlanlar,
Bil, köksünü ötürər, yetgin baxanlar.
Hər nəzərdən oxunar, bahar gəlib bil,
Ax, nə gözəl zəmanədir, yeniləşib il!

## QAR

Vətənimdə ömrü azdır qarın,
Həz verir, yağanda narın-narın.
Onda yeri görünür baharın,
Gözəldir, hər fəsli bu cahanın.

Başqa duyğular, girir köksümə,
Qar da bəzəkdir, inan ömrümə.
Su olur, nədəndisə sonda,
Gözəlliyi, hiss olunur onda.

Soyuqsa, soyuğundan qorxmuram,
Yağdıqca, bu həzzindən doymuram.
Qar yağıb, ömrümüzü ağartsın,
Xoşbəxtliyin, faizini çoxaltsın!

## YARALI BAĞ

Əzizim, yaralı bağ,
Ey baxtı qaralı bağ.
Payızı çatmamışdan
Həsrətdən, saralı bağ.

Əzizim, gözə gəldi,
Zirvədən düzə gəldi.
Itirib yaşılını,
Yarpaq daha xəzəldi.

Sındırma sözlə məni,
Yandırma közlə məni,
Gedərəm, qayıdaram,
Baharda gözlə məni.

Saçlarıma dən düşür,
Günlər ömürdən düşür.
Bəxtimə gün doğanda,
Dünyaya işıq düşür.

Nə yarpağın solaydı,
Nə nemətin olaydı.
Əbədi baharından,
Qəlbimə nur dolaydı.

Torpağa bağlı bağım,
Qollu-budaqlı bağım.
Bir eşqin şimşəyindən
Sinəsi dağlı bağım.

## DÜZ DANIŞ

Ruhundakı, ucalığa qalx bir az,
Ürəyini odla üfür, yax bir az.
Gözünü aç, bu dünyaya bax bir az,
Düz danışsan, ucalarsan bir boy da.

Yalan demə, gəl qardaşa, bacıya,
Dönər bir gün, həyat sənə acıya.
Yalan dönər, etibarda qayçıya,
Düz danışsan, ucalarsan bir boy da.

Mən dedim ki, sən qəlbinlə duyarsan,
Öz ömründə, bir xatirə qoyarsan.
Həzz alaraq, həyatından doyarsan,
Düz danışsan, ucalarsan bir boy da.

# Dinə bağlılıq və müsəlmançılıq

## PEYĞƏMBƏRIMIZ

Bütün yetimlərin atasısan sən,
Bütün fağırların, imdadısan sən,
Bütün xəstələrin, muradısan sən,
Peyğəmbər Məhəmməd, ali Məhəmməd!

Allahla dilində, sən müsəlmanın,
Hər kəsin ürəyi, sənin qurbanın,
Sənsiz olmazdı, mənası dünyanın,
Peyğəmbər Məhəmməd, ali Məhəmməd!

Allahın yanında, uca məqamın,
Güvənc dayağısan, hər bir insanın,
Sənsən ali əşrəfi, bu cahanın,
Peyğəmbər Məhəmməd, ali Məhəmməd!

Şükür Tanrıya, rəsulumuzsan,
Günəşdən işıqlı, sən nurumuzsan,
Canımızda axan, sən qanımızsan,
Peyğəmbər Məhəmməd, ali Məhəmməd!

Salavat edirik, sənin adınla,
Ruhumuz yoğrulmuş, amallarınla,
Yaşayırıq rəsulum, Quranınla,
Peyğəmbər Məhəmməd, ali Məhəmməd!

## HACI ƏMƏLIN

Zülməti zərrəcik, yaşadsa da bil,
Zərrəcik alovun, başlanğıcıdır.
Bil, zəkanın aynası olsa da dil,
Əmək zəfərlərin başlanğıcıdır.

Qüsursuz əməllə, olsa həyatın,
Vicdanın, mənliyin, bir də qürurun.
Allahla başlasa bütün əməlin,
Halallıqla yaşar, sənin vücudun.

Unutma, dünyada hər şey fanidi,
Həyat özü, zamanında anidi.
Çoxu qani deyil, bəzi qanidi,
Dünya özü, ömür kəsən canidi.

Çörək üçün, nə cür oldu yaşama,
Çaqqal olub, canavara yallanma.
Əqidəsiz, hər ovçuya ovlanma,
Vəfasız dünyaya, çox da allanma.

Düşün ki, şirindir bəzənsə acı,
Bil, həyat tez əyər, yazığı, acı.
Sağlamlıq dünyanın ən şirin tacı,
Əqidən, əməlin, qoy olsun Hacı!

## QEYRI-ADIDIR

Bir kərə aldansan, dünya malına,
Sonra addımların, yanlış olacaq.
Özün yanacaqsan, sonra halına,
Tamah ürəyində, yuva salacaq.

Parıltı daima,  cəlb edər gözü,
Daxildə daima, gedər vuruşlar.
Insan qalib gəlsə, özünə özü.
Onu xilas edər, belə baxışlar.

Çoxları tamahdan, çevrilib yada,
Zənginlər – aləmdə, yetim qalanlar.
Bir yanda yaşayır, halal dünyada,
Bir yanda şeytana, əsir olanlar!

# ƏL TUTMAQ

Mükəmməl tərbiyən, möhkəm təməlin,
Bahar tək gül açsın arzun-əməlin,
Olsun kimsəsizin üstündə əlin,
Bəşər insanlığı, Tanrıdan alıb.

O uca zirvələr, diləyin olsun,
O dərin dəryalar, ürəyin olsun,
Deyilən dualar, köməyin olsun,
Qəm etmə görsən ki, teli dən alıb.

Yaxşılıq insanın balı, pətəyi,
Yamanlıq namərdin, açmaz çiçəyi,
Nə əli kəsginən, nə də ətəyi,
Əl tutmaq unutma, Əlidən qalıb!

## INSAN

Yaşatmaq çox çətindir yaşamaqdan,
Incimək asandır bağışlamaqdan.
Sirri saxlamaq da, deyildir asan,
Cəzasız heç qalmaz, əhdini pozan.

Bu dünya ekrandır gözlərin üçün,
Həyat bir meydandır sözlərin üçün.
Ömür fürsətdir qardaş, insan üçün,
Əqlin, elmin nemətdir sənin üçün.

Bil Allahdır dünyanı tənzimləyən,
Cahanda kordur gəl, bunu görməyən.
Dünyada bil, yoxdur insan ölməyən,
Cahildir deyirlər, bunu bilməyən.

Dünyanın sirləri tamam açılmaz,
Eşqin təravəti heç zaman solmaz.
Dəyişər zamanə, heç belə qalmaz,
Bizdən bu dünyada, bir daha olmaz.

Solmaz ürəklərdə qurub-yaratmaq,
Zəhmətlə çalışıb, kədərdən qaçmaq.
Ən böyük hünərdir arzuya çatmaq,
Bu da haqq işidir, torpaqda yatmaq!

## ALIN YAZISI

Babalar həmişə, düzü deyiblər,
Talehi alına, yazı deyiblər.
Beləcə həm qışı, yazı deyiblər,
Onu hiss eləmək, qoxumaq olmur.

Kiminə ömür  tək, yaşanır ömür,
Kiminə yük kimi, daşınır ömür,
Hərdən çiçəklənir, daşlanır ömür,
Yazıya bir ilmə, toxumaq olmur.

Bir damla ruhuna, cahan dar demir,
Insanlıq əvvəldən, cana var demir,
Allah qoruyanı, canavar yemir,
Yazı haqq  yazısı, oxumaq olmur!

## DÜNYA, ƏCƏLSƏN

Insan ömrü payız, həm də baharmış,
Həyat, nə qəribə qanunun varmış?
Ölən insan nə tez unudularmış,
Dünya, həm gözəlsən, həm də əcəlsən!

Mən də yaşamışam arzu, kam ilə,
Həqiqət gəzmişəm  çıraq, şam ilə.
Həyatım  keçməyib, inan cam ilə,
Dünya, həm gözəlsən, həm də əcəlsən!

Çalışıb  ulduz tək  parlar, yanaram
Getdiyim yollarla, ömrü  anaram.
Zamanım  yetişər, mən də köçərəm,
Dünya, həm gözəlsən, həm də əcəlsən!

Insan bu həyatın bir  kiçik qəlbi,
Incəylə incədi, sərtlərlə dəli,
Rəhm  etməz, ağladar gülən gözləri,
Dünya, həm gözəlsən, həm də əcəlsən!

Dünya, heç  demirəm,  bağışla məni,
Şirinsən mələk tək, görürəm səni.
Arzular içində, öldürmə məni,
Dünya, həm gözəlsən, həm də əcəlsən!

## ƏMƏL YAŞADIR

Sanma ki, bu ömür əbədi andı,
Hər insan həyatda yaşadı, yandı.
Həyat fəlsəfəsin hamımı qandı?
Duyma ki, insanı yaşadan candı.

Əməkdir insanı göyə ucaldan,
Həmişə qorx, qaç sən, inan yalandan.
Ayrılma heç zaman eldən, obadan,
Allah üz döndərməz, eldə, olandan.

Torpaq müqəddəsdir inan, həyatda,
Səni sınayacaq o,  zamanında.
Allahı tanıyıb, oxusan Quran,
Həyatı qavrayıb, yaşarsan asan.

## MƏNALI ÖMÜR

Zülmün, var-dövlətin, bil axrı yoxdur,
Cəfası həzzindən, inan ki, çoxdur.
Qavra ki, ömrün axırı yoxdur,
Əməlin axirətdə, savabı çoxdur!

Əxlaqın, tərbiyən bir də ki, elmin,
Daim, gözündədir fikirləş elin.
Nəfsini saxla ki, bir gün gələcək,
Dünya elədir ki, hamı öləcək!

Aclıq bir il çəkər, minnətsə min il,
Çalış bəhrə versin, yaşanan hər il.
Gərəkdir düz olsun daima könül,
Onda mənalı olar inan, ömür!

## NADAN YAŞAMA

Dünyanın sayğacı heç vaxt dayanmır, inan,
Heç kəsi əhf etmir qardaş dayanmır zaman.
Nə qədər yalvarsan, sən etsən ahu – fəğan,
Bir ömrün var sənin, ikincisi yox, tamam.

Sağ ikən xoşbəxt insanlar, deyər sözünü,
Yaşayıb, anlayıb, duyaraq öz dövrünü.
Əməlin, əsərin xatirə qoyub getdilər,
Adların tarixə yazaraq, həkk etdilər.

Ey mənim amansız dünyam, mənim əməlim,
Bil, tarix deyəcək nədir mənim qiymətim.
Allahım, yanında varsa bir az hörmətim,
Nadan yaşamaqdansa, yaxşıdır ölməyim

## RUHDAN GƏLƏN SƏS

Kimsədən kimsəyə fayda yox, dostum,
Dünya bir sonsuzluq, yolu çox, dostum,
Azmaz öz yolunu gözü tox, dostum,
Azan olsa, dövran atdan salacaq.

Demə ki, torpağın üstündə varam,
Ölümdən, itimdən mən çox uzağam,
Birdən, bulaq kimi çağlamaz yaram,
Fikirləş, səni kim bir gün anacaq.

Dostum, çox incitmə gəzən ruhumu,
Ruhdan gələn səs var, unutma onu,
Çalış, yaxşılıqdan biçilsin donu,
Çünki tanrıdan, axirət alacaq!

## QƏBRISTANLIQDA

Sən ey yer üzündə, düz gəzən insan,
Qəbirə uzanarsan, bil bir zaman.
Həyat köhləninə, minib çapırsan,
Haqqı unudub da, yolu azırsan.

Halaldır, haramdır fərq verməyirsən,
Yaxşını-yamanı heç görməyirsən.
Neməti zəhmətlə, sən dərməyirsən,
Bizi yaradanı, hiss etməyirsən?

Çox da sən özünü, vurma od-közə,
Axırda inan ki, bükülüb bezə.
Dünya bir sınaqdı bil ki, hər kəsə –
Insan nə ətəyi, nə əli kəsə.

Dünyanın sərvəti, onda qalacaq,
O nə veribsə bil, geri alacaq,
Yamanlıq məğlub tək, bayraq asacaq,
Yaxşı əməllərin, qalib olacaq.

Gəzib məzarları, bir azca düşün,
Gəzərdi onlar da, altında göyün.
Indi isə yatıblar, altında yerin,
Ey insan, bu gün həyat sənin, sevin!

## AXIRƏT DÜNYASI

Bir kimsə düşünmək, istəmir belə,
Axirət sözünü, gətirmir dilə.
Yaxşı olardı ki, hər bir kəs bilə,
Axirət dünyası var, o  sondadır!

Yeyirik, gəzirik heç düşünmədən,
Günahlar edirik, heç daşınmadan.
Duymuruq, kimdənsə  biz utanmadan,
Əsl  evin ordadır, həmin sondadır!

Dünyadı, sığışan ürəyə, gözə,
Tanrı bir imkandı, yaradıb bizə.
Kimsə də  düşünüb qayıtdı düzə,
Bil, evin ordadır, həmin sondadır!

Insan ömrü boyu, qol-qanad atır,
Qəflət yuxusunda, çoxları yatır,
Müdriklik anına, o kəslər çatır,
Bilir əsl dünya, həmin sondadır!

Fikirləş, bu boyda bir kainatı,
Yer fırlanıb, yaşadır bu həyatı,
Pozulmaz heç dəqiqəsi, saatı,
Əməl düzsə, xoşbəxtlik bax, ondadır!

## HEÇ KƏS GECIKMƏZ

Tanrı hüzuruna, heç kəs gecikməz,
Dünya dəyişsə də, nizam dəyişməz.
Verilmiş zamandan saniyə keçməz,
Məyəm düşündün ki, yaranan ölməz?

Hər kəsin talehi, bir bəxti vardır,
Ömrümüz bizimlə, kəbinli yardır.
Həyatın yükünü, çiynində qaldır,
Bu insan boynuna, düşən qanundur.

Ömrün qədrini bil, geri qayıtmaz,
Nadanı, top-tüfəng, heç nə ayıltmaz.
Mənasız günlərin inan, anılmaz,
Bəxtəvər günlərin, səndən ayrılmaz.

# *Ülvi hisslər*
# *və ali duyğular*

## SEVGI

Yaşadar insanı, sevgi əzəldən,
Əzəldən düz ilqar, onun tacıdı.
Hamı ilhamını, alır gözəldən,
Məhəbbət ürəyin, ehtiyacıdı.

Sevgi insanlara günəş payıdı,
Təklənən ağac da, yalqız ağacdı.
Ürəkdən başlanan bulaqdı, çaydı,
Sevgisiz insanlar, barsız ağacdı.

Eşqini yarınla, bölməlisən sən,
Yoxsa belə sevgi, boşa yaranır.
Həm də həqiqəti, bilməlisən sən,
Insanlar dünyada, qoşa yaranır.

Sevgisiz insanlar, qışa bənzəyər,
Hər işin əməlin, meyarı sevgi.
Eşqsiz bir ömür, külə bənzəyər,
Insan bir qızıldı - əyarı sevgi.

Həyat da, onunla olar bərqərar,
Ürəklər bu oddan, alışıb yanar.
Insanlar onunla, qalxar ucalar,
Sevgisiz yaşayan, bil tez qocalar!

## DUYĞULAR

Insanı buraxmaz, bir an qayğılar,
Ümüdlə gecəni, gündüzə qatar.
Qəlbini hər zaman, tapar duyğular,
O gah tüstülənər, gah ocaq çatar.

Itirsən duyğunu, ürək daş olar,
Insanın ümidi, gümanı odur.
Üzdə  gülüş olar, gözdə yaş olar,
Insanın şəfəqi, dumanı odur.

Ürək döyünürsə, ürək yanırsa,
Ömür qayğıları,  daşıyır insan.
Baxıb gözəlliyə, duyğulanırsa,
Demək insan kimi, yaşayır insan.

## GÖRMÜŞƏM

Yayın qızmarında, mən çox yanmışam,
O məktəb yolunda, çox dayanmışam.
Sevdiyim bir qızı,  hər gün anmışam,
Ilk eşqin közünü, belə görmüşəm.

Ən gözəl qəhərdi, sevgi qəhəri,
Çox zaman ilk eşqin, olmur bəhəri,
O qızın fikriylə, açıb səhəri,
Talehin üzünü, belə görmüşəm.

Böyüdükcə həyat, məni sınayıb,
Qohum-qardaş, səhvlərimi qınayıb,
Min gözəl içində, onu tanıyıb,
Ruhumun özünü, belə görmüşəm.

Ehtiyac, çox hücum çəkib sıxılam,
Dar günlər, çox yandırıb ki, yaxılam.
Məhəbbətim, qoymayıbdı yıxılam,
Çarpışmaq sözünü, belə görmüşəm.

Tələbəlik eşqiylə nə yatmışam,
Gecələri gündüzlərə qatmışam.
Axır gedib, öz arzuma çatmışam,
Dünyanın düzünü, belə görmüşəm.

O sevgi, həmişə dayağım olub,
Mənim əlim olub, ayağım olub,
Zülmət gecələrdə, çırağım olub –
O qızın sevgisin, belə görmüşəm!

## MƏHƏBBƏT NEYLƏR

Qəlbi salar od-közünə
Hər halı guman eyləyər.
Aşiqi salıb izinə,
Dünyanı duman eyləyər!

Cəsur özü tir-tir əsər,
Vüqarından qalmaz əsər,
Hər ürəyə ən şah əsər –
Öldürməz, aman eyləyər!

Hər insanın eşq anı var,
Hər gecənin bir danı var,
Hər aşiqin dövranı var,
Məcnunu zaman eyləyər!

Ömrün şirin noğulu o,
Əfsanəsi, nağılı o,
Alar başdan ağılı o –
Yaxşını yaman eyləyər!

Sənanlara xaç taxdırar,
Fərhadlara tər axdırar,
Varlılara od yaxdırar,

Ya kül, ya insan eyləyər!

## YENI ILDƏ

Təravətin, görüm heç vaxt solmasın,
Ürəyində kədər, qüssə qalmasın.
Nur gözlərin, bir də yaşla dolmasın,
Yeni ildə, yeni ildə, dilbərim!

Bəxt ulduzun, nurdan çələng bağlasın,
Bulaq kimi, qoy həyatın çağlasın.
Allah səni, pis nəzərdən saxlasın,
Yeni ildə, yeni ildə, dilbərim!

Kədərlə saçını, heç hörməyəsən,
Taleh üstünə, qəm heç sərməyəsən,
Bir ağrı, bir acı heç görməyəsən,
Yeni ildə, yeni ildə, dilbərim!

Lalə kimi, qöncələnib açasan,
Günəş kimi, bəxtimə nur saçasan.
Xoşbəxt olub, bədbəxtlikdən qaçasan,
Yeni ildə, yeni ildə, dilbərim!

Yeni illər, gəlib bir-bir ötəcək,
Ömürdən hər il, bir kərpic düşəcək,
Vətən xoşbəxtlik, səadət görəcək,
Yeni ildə, yeni ildə, dilbərim!

## SƏADƏT

Xəyalım yenə də, göyə ucalır,
Ulduzlar yenə də, səsləyir məni.
Bütün yaratdığım, dünyada qalır,
Sönməz məhəbbətim, gözləyir məni!

Sənsiz bu dünyanın, yoxdur mənası,
Bütün ulduzların, ən nurlususan.
Sənsiz  boş görünər, sevgi dünyası,
Bütün sevgilərin, uğurlususan!

Dostlar xoşbəxtlik, səadət arzular,
Səadət evimdə, daima vardır.
Yaşayır köksümdə, şirin duyğular,
Bil, kədər- qəm mənim, qəlbimə yaddır!

## SOLMAZ MƏHƏBBƏT

Solmaz çiçəklər tək, məhəbbət solmaz,
Həzzindən ətrindən bil, doymaq olmaz.
Məhəbbət qalacaq  cismin ki, qalmaz,
Eşqisiz bir ürək, heç zaman yanmaz.

Düşünmə dəliyəm, bəlkə Məcnunam,
Eşqin qarşısında, mən də bir mumam.
Xoşbəxtlik mələyi, varsa da qucam,
Sonunda düşünsən, mən də bir puçam.

Solmaz bir kədərsən, mənim qəlbimdə,
Kəsilməz sədasan mənim dilimdə.
Yalnız məbəhhətin indi əlimdə,
Sənin rəsmin gəzir,  daim gözümdə.

## SEVGILIM

Səadət bağında, üzən sevgilim,
Tellərinə çiçək, düzən sevgilim.
Sən də bahar kimi, bəzən sevgilim,
Gözünü ahu tək, süzən sevgilim!

Bülbül tək, çırpınır ürək qəfəsdə,
Sel kimi çağlamaq, istər həvəs də.
Çiçəklər içində, mənim öz gülüm,
Qönçə tək  açılan, əziz sevgilim!

Gəzirəm eşqinlə dağı, çəməni,
Itirməz yolunda duman, çən məni.
Bircə «sevirəm»  de, qoy mən də bilim,
Eşqin zirvəsinə, çatım sevgilim!

## GÖZƏLLIK

Əzəldən gözəllər, özünü dartar,
Belə ədalardan, canını qurtar.
Ağılla birləşsə, ikiqat artar,
Beləcə yaşadar, yaşar gözəllik!

Məcnunu səhrada, azdıran odur,
Qəribə qürbəti, gəzdirən odur,
Ən şah əsərləri, yazdıran odur,
Ilhamla sel olub, daşar gözəllik!

Dünyanın məhvəri, özəyi olar,
Səhmanı, düzəni, düzəyi olar.
Bütün yer üzünün, bəzəyi olar,
Fatehdir, hər səddi aşar gözəllik!

## CAVAN GƏLINDI

Qəlbində elə bil, mələr quzu var,
Qara gözlərində, min bir arzu var.
Dodağında hələ, bahar izi var,
Həyalı-həyalı, üzə gülənim!

Qaşına əl hələ, təzəcə dəyib,
Kaman tək onları, təzəcə əyib,
Xonçaya qoyulmuş, paltardan geyib,
Sevgi çiçəyi tək, gözə gülənim!

Eşqindən, doyunca hələ dadmayıb,
Qəlbini heç kəsə, hələ acmayıb.
Kündəni xəmirə, hələ qatmayıb,
Hər sözü doğruya, düzə gələnim!

Analıq arzusu, axır gözündən,
Isməti-həyası, yağır üzündən,
Ən incə çiçəkdi, Şirvan düzündən,
Sözü var, ceyran tək, düzə gələnim!

Sədaqəti möhkəm, ilqarlı qəlbi,
Qurub-yaratmaqla, doludur qəlbi,
Dünyanın məhəbbət, yoludu qəlbi,
Bir bəxt ulduzu tək, bizə gələnim!

Hələ getməyibdi, xınası əlin,
Sanki bir üzü qız, bir üzü gəlin,
Qoy bəxti ağ olsun, o qara telin,
Qovuşsun ağ günə, bu təzə gəlinim!

## XOŞ YARANMISAN

Kipriyin sürməsi, gözə təravət,
Qamətin ruhuma, verir qətiyyət.
Bu hisslər yaradır, məndə məhəbbət,
Nə xoş yaradıbdır, səni təbiət.

Sən gözəl dünyada bil, cananımsan,
Duyğumsan, hissimsən, həm də canımsan.
Dünyada dünyamsan, asimanımsan,
Damarımda axan, sevgi qanımsan.

Bəxtimin yazılı, gözəli sənsən,
Qəlbimin hər sözü, qəzəli sənsən,
Çoxuna ilk eşqin, xəzəli sənsən,
Mənəsə sevginin, əzəli sənsən…

# YADA SALDIM

Eşitdim səsini, dönə bilmədim,
Çağırmaq istədim, dinə bilmədim.
Qəlbim də kövrəldi, keçmişi andım,
Gəncliyi düşündüm, alışıb yandım.

Gecələr həsrətin, çəkdiyim anlar,
Ömrümü  qəhr edən, güclü tufanlar…
Qəfildən bir anlıq, yadıma düşdü,
Həsrətin qəlbimdən, ruhdan ötüşdü.

Səni sənsiz sevib, unutduğum yaz,
Aldı ürəyimi, niskilli ayaz.
Yox, bunun günahı məndə deyildi,
Onda bu ayrılıq, öndə deyildi.

## GÖZƏLIM

Sən qəlbimdə, ruhumla görüşmüşən,
Ruhunu ruhuma sən sevdirmisən.
Sinəmə lalə tək, köz səpdirmisən,
A mənim gözəlim, eşqim əzəlim!

Görəndən ağlımı, etmisən başdan,
Valehəm simandan, o gözdən, qaşdan.
Sevgi asılı deyil, heç zaman yaşdan,
A mənim gözəlim, eşqim, əzəlim!

Dünya fırlandıqca, ömür də ötür,
Gənclik sağ ol deyib, harasa köçür.
Qocalıq gəncliyin, alnından öpür,
A mənim gözəlim, eşqim, əzəlim!

Vermə həyatını, zaya heç zaman,
Əcəl də verməyir, insana aman.
Qocalıq sərt olur, deyirlər yaman,
A mənim gözəlim, eşqim əzəlim!

Gözlərin gözümdən, getməyir bir an,
Nə qədər közün var, sən alış, sən yan.
Ömür fanidir, amansızdır zaman
A mənim gözəlim, eşqim, əzəlim!

## XOŞUM GƏLIR

Qəlbi təmiz, üzü gülən,
Alnı açıq, qədir bilən,
Qəm verməyib, dərdi silən,
Insanlardan xoşum gəlir.

Qüररununu hey satmayan,
Ar, namusu heç atmayan,
Halala haram qatmayan,
Insanlardan xoşum gəlir.

Dövr çətin, ömür qısa,
Bəd danışan, insan susa.
Şərik olan toya, yasa,
Insanlardan xoşum gəlir.

Millət üçün sönməz olan,
Dinimizdən dönməz olan,
Ucalıqdan enməz olan,
Insanlardan xoşum gəlir.

Kasıblara bil əl tutan,
Yetimlərə dayaq olan,
Allahına sadiq qalan,
Insanlardan xoşum gəlir.

## DÜNYANIN NEMƏTIDIR DOST

Dost demək asandır, mənası dərin,
Onu yaşatmağa, çata hünərin.
Gərək dost arası olmaya sərin,
Saf, təmiz olmalı dosta əməlin!

Mən sənə demirəm,  itaətli ol,
Əgər dost olursan, ləyaqətli ol,
Dostluğun yolunda dəyanətli ol,
Qədimdən əmanət, etibarlı ol!

Dildə deyəndə ki, qardaşıq inan,
Səni çox sevirəm, qardaşım, yaman.
Xəyanət görəndə, ağrıdır aman,
Gözümü, könlümü bürüyür duman!

Dost sözün dilinə çalış gətirmə,
Gətir sən də  çalış, onu itirmə.
Hesab et gözünün nurudur dostun,
Tarixin ən böyük varıdır dostun!

Nədəndir şübhələr didir qəlbimi,
Hər işdən  soyudur, inan əlimi.
Zəmanə gör necə mürəkkəb olub,
Dostluq da dünyada məqsədli  olub!

Yazdım ki, bu şeri insanlar  ansın,
Həyatda dost üçün yanmayan yansın.
Insanlığın arzu -  niyyətidir dost,
Dünyanın qiymətsiz nemətidir dost!

## DOST, SORAĞINA ÇATMIŞAM

Səni səndən də çox sevən,
Lazım gəlsə, kəfən geyən.
Son tikəsin, sənlə bölən,
Dost sorağına çıxmışam!

Sənin üçün nəfəs alan,
Güllə gəlsə, sinə olan.
Saf – niyyətli insan olan,
Dost sorağına çıxmışam!

Dost sözünü bölmək olmaz,
Taleyindən qaçmaq olmaz.
Dostdan şirin heç nə olmaz,
Dost sorağına çıxmışam!

Çox dəyişib zəmanəmiz,
Bil dostsuz insan kimsəsiz.
Necə ki, tüfəng gülləsiz,
Dost sorağına çıxmışam!

Insan üçün, ömür qısa,
Dostsuz ömür dönür yasa.
Götürüb gəzsəm də əsa,
Dost sorağına çıxmışam!

## SƏNIN DOSTLUĞUN

Ürəyim günəşə, nuru andırar,
Fitnədən – fəsaddan daim yan durar.
Alışsa dünyanı bəlkə yandırar,
Yandırıb az yanmış sənin dostluğun!

Içimdə arzular sönən kimidi,
Qartalım zirvədən enən kimidi,
Bir arzu  dostluğum yanan kimidi -
Hər əhdi pozanmış sənin dostluğun!

Üzünün üstündən üzünü açdın,
Bütün körpüləri yandırıb qaçdın
Alovlar püskürüb, kinini saçdın,
Bundan nə qazandı sənin dostluğun?

Itkilər bilmədin tapılan deyil,
Etibar qazanmaq asan ha deyil.
Dostluq da asanca atılan deyil,
Xəyanət yazanmış sənin dostluğun!

Ömürlər, karvan tək gəlib gedəcək,
Durnalar neçə yol vida edəcək.
Payız kimiləri, xəzan güdəcək,
Xəzanmış, xəzanmış  sənin dostluğun!

## INSAN OLSAN

Istəyin parlayar,  açar çiçəyin,
Həyatın bal olar, daşar diləyin,
Ömür mənalanar, dolar ürəyin,
Əgər məhəbbətli bir insan olsan.

Mənliyin, əqidən təmiz qalacaq,
Dünyanın varlığı sənin olacaq,
Insanlıq qəlbinə min iz salacaq,
Əgər sədaqətli bir insan olsan.

Dostluğun hamıya örnək olacaq,
Paxıllar yanacaq, üzgün olacaq.
Insanlar sənə bil, dayaq olacaq,
Əgər zəmanətli bir insan olsan.

## INSAN

Insan var ki, kölgəsində el yatar,
Insan var ki, kölgəsində bit yatar.
Insan var ki, qəlbi dərya, səbri cox,
Insan var ki, var-dövlətdə gözü yox.

Insan var ki, el gözündə çıraqdı,
Insan var ki, öz elində yalaqdı.
Insan var ki, öz elinə dayaqdı,
Insan var ki, cəmiyyətə yamaqdı.

Yer üzündə adam çoxdu, insan az,
Ey Allahım, sən bizləri insan yaz.
Qəlbim, ruhum insanlara bağlıdı,
Insanları insan edən ağıldı!

**ÜRƏYIN SƏSI**

Arzular ürəyi qoymadı yata,
Ətalət içində paslana, bata,
Istədi əlçatmaz, zirvəyə çata,
Yolçular yollarda itən deyil ki?!

Qayğılar üzlərdən, yaşı sildirə,
Ürək ovundurub, gözü güldürə.
Insan əməliylə gərək bildirə,
Yolu var, hər yoldan ötən deyil ki?!.

Həmişə, hər yerdə ürəyin səsi,
Düz yolla aparar daim hər kəsi.
Səhrada gül açar insan nəfəsi,
Bu dünya tükənən, bitən deyil ki?!.

## BƏHƏRIN OLAR

Şirindən şirin ol, şəkərdən şəkər,
Dilindən yağmasın heç zaman zəhər.
«Can» deyib «can» eşit hər axşam-səhər,
Onda nə qəmin, qəhərin olar.

Nə qədər mehriban olsan dünyada,
Hörmətin çox olar, düşərsən yada.
Get-gedə təklənib olmazsan ada –
Çünki dostluq adlı bəhərin olar.

Sənin haqqa daim inamın olsa,
Dost tanış içində hünərin olsa,
Min arzun, əməlin, muradın olsa,
Onda el-obada hörmətin olar.

## BELƏ YAŞA

Bir düyün nə qədər sıxsa da canı,
Sükanı bərk saxla, yolu itirmə.
El gözünü tərəzi bil, sən tanı,
Adının önünə yad ad bitirmə.

Ömrə ölçü götür haqqı düzlüyü,
Bunun təməlisə əməyin olsun.
Ancaq daim olsun sənin düzlüyün,
Görüm ulu tanrı köməyin olsun.

Büdrərsən qədəmi sən yanlış atma,
Əl tutub Əli tək, şərdən də qalma.
Öz halal aşına haram da qatma –
Çalış, zəmanədən geri də qalma.

Əyilə – əyilə ucalmaq olmaz,
Pozular üstündən insanlıq adı.
Kin ilə heç kəsdən öc almaq olmaz –
Olarsan dünyada dünyanın yadı.

Sanma ki, daimi yaşayır insan,
Ömür müvəqqəti, daimi zaman.
Heç yerdə bitməyib əkilən yalan,
Qoy səndən desinlər, insandır inan.

## HAQQI YAZAN

Dövrü-zaman olur yaman!
Ruhum deyir, aman, aman!
Düz yaşayır yalnız qanan,
Ömür azdır, bilmir nadan.

Həyat mənə naz eləyir,
Bəzən məni lal eyləyir.
Kədərini saz eyləyir!
Sevincini az eyləyir.

Duyğularım uçan quşdu,
Həyatımız bil, sərxoşdur.
Dahilər də dastan qoşur,
Hamı deyir, dünya boşdu.

Dünya mənim, deyən çoxdu,
Yer üzündə qalan yoxdu.
Zaman uçan sanki oxdu,
Qanmıyanlar yenə çoxdu.

Bil ölümə yoxdur dərman,
Elmdədir doğru, yalan,
Verilib birə-bir zaman,
Ucalır haqqı yazan!

## YAŞAYIRAMSA

Dindirmə ruhumu, inciyib, yatıb,
Ruhum fikirləş ki, çirkaba batıb.
Halalı saxlayıb, haramı atıb,
Daima kədəri sevincə qatıb.

Bil, insan qurduqca öz həyatını,
Deməli tikir taleh binasını.
Zəhmətlə qoyulsa kərpici, daşı,
Daima durmadan ucalar başı.

Ömür bir əsərdir, oxunar gedər,
Söylə, hər ömür mənalıdır məgər?
Çalışıb günləri verməsən bada,
Talehin ucunu sən vermə yada.

Ömür yazısın yazır tanrımız,
Həyatda aparır bizi ağlımız,
Uğur verir əməyimiz, bəxtimiz,
Allahdan üzülməz bizim əlimiz.

Niyazi, öyünmə elmin vardır,
Neçə yazılmamış, əsərin vardır,
Həllin gözləyən, sualın vardır,
Şükür ki, salışan ürəyin vardır.

## XATIRƏLƏR

Nə qədər doğmadı o günlər mənə,
Oynayaraq məktəbdən qayıtdığımız.
Yavaşca hər soz deyəndə sənə,
Itirdi həyatda qayğılarımız!

O günlər ömrümün bir hissəsidir,
Məktəbin yolları əzizdir, əziz.
O günlər qəlbimin, bir qüssəsidir,
Indi bu həyatda gedirəm sənsiz!

Həyatım  dünyada keçsə də sənsiz,
Səninlə bağlıdır keçən günlərim.
Nədəndir de, sən mənsiz, mən isə sənsiz?
Ötüşür xatirələrdə ömür illərim.

## QALAQ

Dondurma ömrünü, gəl bu həyatda,
Arzunu amala çevir də yaşa.
Baxtın gətirməsə, sənin həyatda,
Hər bir çətinliyə sinə gəl, yaşa.

Ömür bir karvandır, bir gün duracaq,
Həsr elə ömrünü xalqa, vətənə,
Sənin qiymətini yəqin verəcək,
O məhəl qoymayır yoldan ötənə.

Həmişə həyatda yerini tanı,
Ağılın, savadın kömək olacaq
Əməli qaldırır yalnız insanı,
Amalın, əməlin daim qalacaq...

## ƏMƏLI OLAR

Bir yanda qarılar deyir ağılar,
Bir yanda bir toyda, kədər dağılar.
Oğul qeyrətlisə, baş əyər dağlar –
Qeyrət zəfərlərin təməli olar.

Köhnə dəyirman tək işləyər zaman,
Keçəl Həmzə kimi verməz də aman.
Insana təmizlik ölçüsü hər an,
Ona qiymət verən öz eli olar.

Yalandır əzəldən bu dünya yalan,
Onun bostanında, ömür-gün talan,
Hər insan oğlundan yadigar qalan
Öz adı, soyadı, əməli olar.

## ZATINI GÖZLƏ

Insanın həm kökü, həm zatı vardır,
Bildirər, heç qoymaz məkanı dartır,
Yaxşı insanlara pis əməl mandır,
Gəl bu fəlsəfəni nadana qandır.

Əqidə şəlalə, əməllə axar,
Miras deyillər ki, atadan qalar,
Kökünə baxmasan, əməlin yanar,
Zatından utanan daim ucalar.

Daima düşün ki, kimsən həyatda,
Nəslin adı var yaşadığın ocaqda,
Olsan yaxında və ya uzaqda,
Düşün ki, zatındır daim sınaqda.

# Ömür bir möщlətdir, dünyaны гavramaг üçüн

## ÖMÜR BIR MÖHLƏTDIR

Əzəldən sirlidir qoca kainat,
Ən böyük məktəbdir, bizə bu həyat.
Ömür-gün hamıya adi möhlətdi...
Yadigar qoymağa yaşa, yaz-yarat.

Qəvvaslar həmişə üzər dərində,
Aqillər mətləbi ilk sözdən duyar.
Ömür hərəkətdir, sayma yerində,
Ağıllı  cücəni payızda sayar.

Gərəkdir, ürəyin bir məşəl olsun,
Gərəkdir əməlin, bir hünər olsun.
Ömür bir möhlətdir, diqqətin olsun,
Əməyin, diləyin, muradın olsun.

## ÖMRÜ BELƏ QUR

Işi düz qur, möhtac olma heç kimə,
Şükür eylə yaşadığın hər günə.
Yalnız inan apardığın təhlilə,
Məətəl qalsın hamı sənin səbrinə.

Qəddini düz saxla, əməli təmiz,
Yaşama dünyada qardaş, kölgəsiz.
Səxavətdə səni  duysun kimsəsiz,
Meyvəli ağac ol, olma bəhrəsiz.

Varlığa öyünmə, yoxluğu da gör,
Yaxşı əməllərdən sən çələnglər hör.
Özün olmasan da, adın yaşasın,
Qoy xalqın daim səni xatırlasın!

## CAN SAĞLIĞI

Mən varamsa, dünya vardır mənimçün,
Can sağlığı bir neymətdir bizimçün.
Canına bax, qədrini bil ey insan,
Deyil daim bizə verilən zaman!

Candan əziz de, dünyada nə vardır,
Ömür özü bizə nazənin yardır.
Ən əziz əmanət dünyada candır,
Sənə qalan qazandığın ad-sandır!

Hara qaçsan ölümdən ki, qaçılmaz,
Ölüm özü bir həqiqət danılmaz.
Aqil insan öz zənnində yanılmaz,
Can sağlığı pul-paraya alınmaz!

## MƏNI QOPARIR

Dünyanın əzəli, dünyanın sonu,
Mənimlə başlayır, məni aparır.
Çoxları anlamır, duymayır onu,
Məni məndən alıb, məndən qoparır.

Bu həm önlük olur, həmdəki sonluq,
Ürəyim döyünür, deməк həyatım.
Əvvəli doğmalıq, sonu onsuzluq,
Qalanda doğmayam, öləndə yadam.

Harda olsam belə unutmam eli,
Itirməm heç zaman bu ali dili!
Güllə qarşısında tutsalar məni,
Onda da seçərəm ana Vətəni!

Tənhalıq içimdə tufan qoparır,
Ömrümüz-günümüz onun əlində,
Odur həm gətirir, həm də aparır,
Məni məndən qoparır zaman əlində.

Qardaş, bir qonağıq biz  bu dünyada,
Hər kəsən  ömrünü gəzir ortada.
Iz qoyub gedər mərd eldə-obada,
Zamansa ocaqtək yanır sobada.

## QALIR

Həzin yağış yağır, ömür islanır,
Isti xatirələr alışıb yanır,
Həyat gah toylanır, gah da yaslanır.
Zaman tarix olub özündə  qalır.

Həyat səhnəsində, oynamaq çətin,
Daşlara çox dəyər arzun, niyyətin.
Gərək bu yollarda olasan mətin,
Bu dünya odunda, közündə qalır.

Dünyanın nəbzini tutsan hər anla,
Axarda olarsan sən də zamanla.
Mənim ömür payım yaxşı- yamanla –
Neçə şeirimdə, sözümdə qalır.

## ƏBƏDI QALAR

Bu gün yaddaşıyıq, sabah baş daşı,
Axırda heç kimə qalandı dünya.
Ağılla ölçülür insanın yaşı,
Verdiyini bir gün  alandı dünya.

Harda insanı var, orda məzarı,
Hər kəsə bir ömür payı yaşadır.
Yazıb taleləri tanrı yazarı,
Əzəldən toyuyla, vayı qoşadır.

Kəpənək ömrüdür, insanın ömrü –
Çiçəkdən çiçəyə bir uçuş yolu.
Amma bilinməyir, dünyanın ömrü
Bilinmir insanın düzdürmü yolu?

Bacarıb, zəhməti  günə calayıb,
Dən-dən yaş qurudub, bircə dən bitir.
Qəlbinlə, ömrünlə ocaq qalayıb,
Bir ürək qızdırıb, bir niskil itir.

Zəhəri bal dadar, şəkəri acı –
Bəzən gözəlliyi, ilan tək çalar.
Cümlə bəndəsinə oxunar ağı,

Əməli dünyada əbədi qalar.

## DÜNYA

Əzəldən bəndəyə sirri bağlıdı,
Bəzəyi, butası insan ağlıdı.
Insan həqiqəti insan nağlıdı,
Bir cıdır, estafet, yarışdı dünya.

Ağ, qara qütbləri vaydan, düyündən,
Xoşdu yaz qoxusa yeri göyündən.
Qardaş qardaşına daş atan gündən,
Bulandı, qalandı, qarışdı dünya.

Meşəni, dənizi niyə qurudaq?
Gəlin bulaqlar tək biz də durulaq.
Əl-ələ verib də onu qoruyaq,
Hərəyə bir guşə, qarışdı dünya.

Harda zalım varsa, zülüm deməkdi,
Harda sərhəd varsa, bölüm deməkdi,
Harda silah varsa, ölüm deməkdi,
Ancaq yaşamağa barışdı dünya.

Bizi bu dünyada, yaşadan həzdi,
Tamahda qəlbləri tamamən gəzdi,
Çəhalət insanın varlığın əzdi,
Bizim bu duruma alışdı dünya.

## YALAN DÜNYADI

Əvvəli bilinməz, görünməz sonu,
Çözülməz çox sirri, açılmaz donu,
Ağlımız necə var dərk etməz onu –
Insanın ömrünü alandı dünya.

Zəncir həlqəsitək gəlmədə insan,
Gəlib ağlamaqda, gülmədə insan.
Yarandığı gündən ölmədə insan,
Əbədi hər ömrə talandı dünya.

Yarandığı gündən qaynar qazandır,
Döyüşlə itirib, sülhlə qazandı.
Tək bircə fəsli var, o da xəzandır,
Bizləri yarpaq tək salandır dünya.

Uca zirvələrdə sonra dür olur,
Açılan çiçək də haçansa solur.
Bir yandan başalır, bir yanda dolur,
Bilmirik nə üçün belədir dünya?

Pıçıldar daima həvəsdi, bəsdi,
Nəfəsi gah verib, gah da kı, kəsdi.
Biləndə can üçün quru qəfəsdir,
Dedilər yalandır, yalandır dünya.

## YALTAQ

Anadan olandan o, gündən bəri,
Yaltaqlıq olubdur işi, əməli,
Əyri qoyulubdu belə təməli,
Əsl insanlarda bu sima olmur.

Nizamsız düzülüb ömür düzgüsü,
Yoxdu nə əzabı, nə də üzgüsü.
Özünə baxmağa yoxdu güzgüsü,
Bilməyir qeyrəti heç almaq olmur.

Əyilib şax addım atmaq istəyir,
Bilir, qürurunu satmaq istəyir.
Belə arzusuna çatmaq istəyir,
Duymur alçalmaqla ucalmaq olmur.

Bilirəm sözlərim çatmaz sözlərə,
Torpaq töküləcək doymaz gözlərə.
Allah kömək olsun, xalqım, bizlərə!
Belə insanları məhv etmək olmur.

Aqillər uzaqdan tanır yaltağı,
Yaltaqlar aldadar hər an nadanı.
Satarlar nə varsa hətta torpağı,
Onlardan heç zaman qəhrəman olmur.

## ÖMÜR KARVANI

Dünyanın gözləri bəzən kor olur,
Halal bəndəsi üçün hərdən zor olur,
Yolların üstündə necə tor olur,
Ömürü yenidən yaşamaq olmur.

Zaman tərəzinin gözlərin əyir,
Canavar quzunun donunu geyir,
Həyatın zərbəsi insana dəyir,
Xəbisi, xaini durdurmaq olmur.

Zaman çay tək axıb ömürdən gedir,
Ehtiyac ürəyi həmişə didir,
Elə bil kim isə idarə edir,
Ömrü ürəyincə yaşamaq olmur.

Uşaqlıq şəfəq tək uçub da gedir,
Səadət əlindən qaçıb da gedir,
Gənclik durna kimi uçub da gedir,
Ömür karvanını saxlamaq olmur.

Gəlmişik cahana biz bir qonağıq,
Həyat pəncərədir, biz də baxanıq.
Həyat eşqi ilə bizdə yananıq,

Ömürdən, həyatdan heç doymaq olmur!

## KIMINDIR DÜNYA?

Əzəldən bilinməz dünyanın işi,
Şəhvətin, tamahın qıcanar dişi,
Çətində adını qazanar kişi –
Dünya əməlini saf  edənindir.

Üzəri ildırım, sıldırım dolu,
Hərdən qar ələdər, hərdən də dolu,
Haqqına uzanan bu dünya yolu
Bütün günahları tərk edənindir.

Haqdan alışıbdı ocağı, közü,
Bəndənin üstdədi daima gözü –
Əsl məhəbbətin, sevginin özü –
Əhdi – ilqarını bərk edənindir.

Etibar olaydı insan yarağı,
Haqqa üz tutardı eşqi,  marağı,
Zülmətdə dostluğun yanar çırağı,
Dar gündə dostuna ərk edənindir.

Çoxları bixəbər gəlib gedir də,
Adını ölmədən silib gedir də,
Az adam dünyanı bilib gedir də

Dünya bu dünyanı dərk edənindir.

## CAVAB TAPILMIR

Bəzən xoş amallar, arzular sönür,
Bəxt karvanın niyəsə üzü dönür.
Açılmır dünyanın heç vaxt paxırı
Bilinmir dünyanın əvvəl, axırı.

Dünya hikmətinin düşünən, qanan,
Bəzi sualları anlayır asan,
Kim ki, ömrünün sonunu görməyir,
Deməli, ömürü hədər xərcləyir.

Insan, sonluqda yox niyə olursan?
Niyə gül açırsan, niyə solursan?
Bax, belə suala cavab tapılmır,
Dünyanın sirləri tamam açılmır.

## ÖMÜR DÖVRIYYƏSI

Payız çiçəkləri solduran zaman,
Quşları köç yolu uçduran zaman,
Şaxta bayrağını qaldıran zaman,
Sanma ki, çiçəklər, güllər itəcək.

Bayquş yas quşudur, o bülbül olmur,
Yurd yeri silinmir, kül ocaq olmur.
Bəzən çiçəklənib dünya gül olmur,
Sanma ki, bülbüllər daim ötəcək.

Su gələn arxlardan axacaq bir də,
Torpaqdan çiçəklər qalxacaq bir də,
Haq öz bayrağını taxacaq  bir də,
Sən elə bilmə ki, dünya bitəcək.

## ÇƏTINDIR

Haqqı bu dünyada danmaq çətindir,
Haqdan dönməyənlər daim mətindir.
Bil, səni ucaldan öz zəhmətindir,
Pozulsa işlərin düzmək çətindir.

Bəzisi dövlətdə tapdı həyatı,
Bəzisi övladda gördü muradı.
Bu ömür insana möhlət, aradı,
Alanda yolları duman çətindi.

Kiminin göylərə ucaldı adı,
Kimisi pul ilə ölçər hər dadı.
Kim ki, sədaqətlə dost etsə yadı,
Söyləməz bəlkə də, zaman çətindi.

Namərd öhdəsindən gəlmək də çətin,
Həyatın mənasın bilmək də çətin.
Yaşamaq da çətin, ölmək də çətin,
Arzu-murada da çatmaq çətindi.

Duyma ki, başqası yaşayır asan,
Allahı çağırır qovan və qaçan.
Yaman korlanıbdır, bu dünya yaman,
Çətindi yaşamaq, yaman çətindi.

## ZƏMANƏ

Çox qəribə zəmanəyə çatmışıq,
Heç bilmədən, bataqlığa batmışıq.
Bilinməyir oyağıq, ya yatmışıq,
Zəmanəmiz çox qarışıb, a qardaş.

Kim düz deyir, kimi əyri bilmirsən,
Gözün baxır, kim nə edir görmürsən.
Yaxşılıqdan kim nə güdür bilmirsən,
Müftəxorluq lap çoxalıb, a qardaş.

Yalvarıram tanrıdakı hikmətə.
Kömək etsin bu zavallı millətə,
Gündən-günə biz düşməyək zillətə –
Üzlər-gözlər çox qarışıb, a qardaş.

Çəkiləcək yəqin bir gün çən, duman,
Həqiqətə çevriləcək hər güman.
Dünya keçər belə qalmaz bu zaman –
Əziyyətlə el barışıb, a qardaş.

Dövran keçər belə qalmaz bilirəm,
Xoşbəxt günü mən qabaqda görürəm.
Son məqamda bu qərara gəlirəm,
Allah qoysa, düzələrik, a qardaş.

## HƏYAT

Özünü tapmasa, insan özündə,
Yəqin ki, ucalmaz elin gözündə.
Saxtalıq duyular hər bir sözündə,
Ey həyat, beləsi ləkəndi sənin.

Bu gün səni öpüb dost deyən insan,
Niyə puldan ötrü alçalır yaman?
Mənliyi, qeyrəti unudur o an,
Ey həyat, beləsi yarandı, sənin.

Qeyrəti, namusu satarsa insan,
Onu tez unudar bu el, bu cahan.
Onsuz da qalmayıb pislərə güman,
Yaxşılıq ən gözəl barındı sənin.

Haqqın dərgahından ümid kəsilməz,
Elin gözlərindən pərdə asılmaz,
Igidi çox olan Vətən basılmaz.
Onlar şöhrətindi, varındı sənin.

Bu həyatın yaxşısı var, pisi var,
Hər insanın bu həyatda izi var.
Hər könülün ocağı var, közü var,
Bil, həyat özü bir anındı sənin.

## DÜNYANI ANLA

Dünyanı var ilə ey ölçən insan,
Dünyada  qalar  var,  sən köçən zaman,
Həyat bir sınaqdır, gəl buna inan,
Cahilin axırı olacaq yaman.

Sən pulu hər şeydən tutmusan uca,
Beləcə bir ömrü vermisən puça,
Çox adam  istəyib milyonu quca,
Pul ilə xoşbəxtlik qapısı aça.

Puldan da, vardan da uca ol, uca,
Bəxtinin ulduzu göylərə uça.
Arzu et qarşında övladın qaça,
Bu qoca dünya da qol-qanad aça.

Dostum,  var-dövlətə gəl çox da uyma,
Dünya mənasını tək pulda duyma,
Kasıba, fağıra  dar gündə qıyma,
Heç kəsi həyatda nagüman qoyma.

Adamı həyata həvəs bağlayır,
Insan var, qəlbində bulaq çağlayır,
Adam var, içində ilan ağlayır,
Adam var, çiynində dünya saxlayır.

Həyat çox şirindir bunu bilirəm,
Onu sevgi ilə daim bölürəm,
Toy toyu gətirər, qardaş deyirəm,
Günəşi görməkçün, çəni silirəm…

## ELMLƏ ANLA

Düşünsən dünyanın mənasını sən,
Duyarsan dərindir, fəlsəfəsin sən,
Nə qədər yazsan da, oxusan da sən,
Anlaya bilmirsən, biləsən kimsən.

Insanın elmi, başında gərək,
Əməli, ömrünün yaşında gərək,
Hörməti, qüdrəti, elində gərək,
Nümunə bir həyat, yaşasın gərək.

Yaşamaq asandır, anlamaq çətin,
Oxumaq asandır, qavramaq çətin.
Çalış ki, dünyada olasan mətin,
Elimli olsan bil, artar qiymətin.

Hər kəs öz ömrünü bir təhər yaşar,
Səsini xalqının səsinə qoşar,
Əllini, doxsanı, yüzü də aşar,
Yalnız elmlə, ömrün mənası coşar.

Əməldir insanı, ucaldan bir baş,
Sevgidir, dünyaya olubdur sirdaş,
Cəhalət, nadanlıq, onlara yoldaş,
Gəl elmi özünə sən eylə qardaş.

## DÜNYANI DƏRK EYLƏ

Əzəldən bilinməz, dünyanın işi,
Sərvətin, tamahın, qıcanar dişi.
Çətində adını qazanar kişi,
Dünya əməlini, düz edəndədir.

Üzəri ildırım, sıldırım dolu,
Hərdən qar ələdər, hərdən də dolu.
Haqqa uzanan, bu dünya yolu,
Bütün günahları, tərk edənindir.

Haqqdan alışıbdı ocağı, közü,
Bəndənin üstündə tanrının gözü.
Əsl məhəbbətin, sevginin özü,
Əhdi-ilqarını bərk edənindir.

Etibar olmalı, insan yarağı,
Düzlüyə üz tutan, insan marağı.
Zülmətdə dostların, yanar çırağı,
Dar gündə dostuna, ərk edənindir.

Çoxları bixəbər, gəlib-gedir də,
Adını ölmədən, silib gedir də.
Az adam dünyanı, bilib gedir də,
Dünya bu dünyanı, dərk edənindir!

## SIFƏTLƏR

Murdar sifətlərə olmayaq düçar,
Qorxuram üzlərdə olan  nur qaçar.
Pis xislətli qəlblərdəki o açar,
Qorxuram, insanlıq qapısın açar.

Pozular rahatlıq, çaşar ağlımız,
Dillərdə hallanar, sərsəm adımız.
Hər sozdən qaralar axan qanımız,
Xəstəliklər tapar yazıq canımız.

Tanrıdan diləyim budur həyatda
Sınamasın bəndəsin hər saatda.
Nəfsiylə olmasa insan cihadda,
Ondan üz döndərər, inan, Allah da!

Yalanı unut ki, rahat olasan,
Dost tanış içində uca qalasan.
Bütün arzulara rahat çatasan,
Hər gecə evində rahat yatasan.

Hər kəsə ömürü tanrısı verir,
Hər kəsə tərbiyə anası verir.
Həyat dayanmayır, günlərsə gedir,
Ömrünü zay etmə, insana deyir.

## YALAN VƏ PARA

Yalan da, para da dünyaya hakim,
Onlardır çıxaran hər kəsə hökü m,
Bil heç kəs istəməz həqiqət sözün,
Yalan da çıxarıb düzlüyün gözün.

Ipəkdən bahadır metrəsi bezin,
Zəmanə deyir ki, yaşayın, dözün.
Həqiqət həlәlik toplayıb özün,
Qısılıb, deməyib gözləyir dövrün.

Unutma həyatda sən ədaləti,
Nağılda güclüdür haqqın qüdrəti,
Həqiqi həyatda bu yalnız nağıl,
Bunu anlamağa lazımdır ağıl.

## HÖKMDARLAR

Ömür dəvə karvanı tək
Il dolanar, zaman keçər.
Hər zamanın sultanı tək,
Hökmdarlar hökm seçər.

Razı qalıb özlərindən,
Od yağdırar, yel əsdirər.
Qəzəb yağsa gözlərindən,
Göz çıxarar, baş kəsdirər.

Hökmün iti anlarında,
Zaman qəsdə yaman durar.
Vaxtı çatar onların da
Başlarını zaman vurar.

Hökmranlar dövran edər,
Illər boyu asar, kəsər.
Şahlar özü gəldi gedər,
Sarayları qalar əsər.

Aqilləri adın saxlar,
Əməllərin tarix yazar.
Dünya varı gözün bağlar,
Hökmdarlar belə yaşar.

## ƏDALƏTLI HÖKMDAR

Qorxu gözlərinin odunu alıb,
Oddan oda düşüb soydaşım insan.
Qul edib, insanlıq adını alıb,
Sultanlar sultanı, hökmdar zaman.

Oğul atasına əl qaldırıbdı,
Hökm üçün qılınc taxıbdı insan.
Nə qədər taxt alıb, tac saldırıbdı,
Neçə səltənəti yaxıbdı insan.

Zalım hökmdarlar, zalım əyanlar,
Zamanda şimşək tək çaxıb gediblər.
Dünyanı pəncərə, seyr sayanlar,
Onu yaşamayıb, baxıb gediblər.

Həqiqət önündə güzgü olanda,
Qəflət yuxusundan oyanar şah da.
Həm əmri, fərmanı, düzgün olanda,
Elin arxasında dayanar şah da...

Ədalət görməyib ellər doyunca
Çox şaha yaraşıq, tac, ziynət olub.
Amma hökmdara illər boyunca,
Daş-qaşdan qiymətli, ədalət olub.

## SOLAN GÜL

Bu dünyada, boş yaşamaq fənadı,
Hər insanı, məhv eləyən ədadı.
Xislətin tamahın bil, sənə düşmən,
Qavramaq üçün, lazımdır düşünən.

Bir canlı, dünyada qalmaz daima,
Hər elmin, ehtiyacı var yayıma.
Düşün ki, düşünsən faydası olar,
Əməllərinin bəlkə, izi qalar.

Niyazi, bil bu cahanda biz qonaq,
Lazımdır arzular üçün, çalışmaq.
Hər günün, zamanın sən qədrini bil,
Çünki,  insanın ömrü bir Solan gül.

## MÜNDƏRICAT


Ön söz əvəzi………………………………………… 3
50 il gəldi…………………………………………. 6
Qocalmaq istəmirəm……………………………. 7
Illər……………………………………………….. 8
Bir daha qayıtmaz ……………….…………….... 9
Qonağam mən…………………………………… 10
Qayıtsan ana…………………………………….... 12
Anasız…………………………………………….. 13
Ana bağışlar……………………………………… 15
Ana – müəlliməyə……………………………….... 16
Qardaş………………………………………….. 17
Canım dədə……………………………………… 18
Dustaq anası…………………………………….. 19
Ülkər……………………………………………… 20
Nənəmin yarımçıq təndiri qaldı………………….. 21
Babam…………………………………………… 22
Sevda…………………………………………….. 23
Əsl insan…………………………..……………… 25
Vaxtsız ölüm……………………………………... 27
Azərbaycanım……………………………………. 30
Torpaq çağırır……………………………………. 31

Yağı torpağımdan qovulacaqmı?…………………. **32**
Vətəni xoşbəxt görək……………………………….. **33**
Qardaşlar…………………………………………. **34**
Birlik……………………………………………… **36**
20 yanvar………………………………………… **37**
Sözün qiyməti…………………………………… **38**
Dil…………………………………………………. **39**
Zəlimxan şeir deyir……………………………… **40**
Bahar ……………………………………………. **42**
Qar……………………………………………….. **43**
Yaralı bağ………………………………………… **44**
Düz danış………………………………………… **46**
Peyğəmbərimiz………………………………….. **48**
Hacı əməlin………………………………………. **50**
Qeyri - adidir…………………………………….. **51**
Əl tutmaq………………………………………… **52**
Insan……………………………………………… **53**
Alın yazısı………………………………………… **54**
Dünya, əcəlsən!…………………………………. **55**
Əməl yaşadır…………………………………….... **56**
Mənalı ömür ……............................................... **57**
Nadan yaşama…………………………………… **58**
Ruhdan gələn səs……………………………….. **59**

Qəbirsanlıqda………………………………………. ***60***
Axirət dünyası……………………………………. ***61***
Hər kəs gecikməz………………………………… ***62***
Sevgi……………………………………………… ***64***
Duyğular…………………………………………. ***65***
Görmüşəm……………………………………….. ***66***
Məhəbbət neylər…………………………………. ***68***
Yeni ildə………………………………………….. ***69***
Səadət…………………………………………….. ***70***
Solmaz məhəbbət………………………………… ***71***
Sevgilim………………………………………….. ***72***
Gözəllik………………………………………….... ***73***
Cavan gəlindi…………………………………….. ***74***
Xoş yaranmısan………………………………….. ***76***
Yada saldım………………………………………. ***77***
Gözəlim……………………………………..……. ***78***
Xoşum gəlir………………………………………. ***79***
Dünyanın nemətidir dost……………………….. ***80***
Dost, sorağına çatmışam………..……………….. ***82***
Sənin dostluğun………………………………….. ***83***
Insan olasan………………………………………. ***84***
Insan...................................................................... ***85***
Ürəyin səsi……………………………………….. ***86***

Bəhərin olar…………………………………………… ***87***
Belə yaşa……………………………………………. ***88***
Haqqı yazan………………………………………. ***89***
Yaşayıramsa ………………………………………….. ***90***
Xatirələr……………………………………………….. ***91***
Qalacaq……………………………………………. ***92***
Əməli olar…………………………………………… ***93***
Zatını gözlə………………………………………… ***94***
Ömür bir möhlətdi……………………………… ***96***
Ömrü belə qur……………………………………… ***97***
Can sağlığı ……………………………………… ***98***
Məni qoparır……………………………………. ***99***
Qalır………………………………………………… ***100***
Əbədi qalar………………………………………… ***101***
Dünya………………………………………………….. ***102***
Yalan dünyadı……………………………….. ***103***
Yaltaq………………………………………………. ***104***
Ömür karvanı…………………………………… ***105***
Kimindir dünya?…………………………….. ***106***
Cavab tapılmır…………………………………… ***107***
Ömür dövriyyəsi………………………………… ***108***
Çətindir……………………………………………… ***109***
Zəmanə……………………………………………… ***110***

Həyat………………………………………………….. ***111***
Dünyanı anla……………………………………… ***112***
Elmlə anla………………………………………….. ***114***
Dünyanı dərk eylə……………………………….. ***115***
Sifətlər………………………………………………. ***116***
Yalan və para…………………………………….. ***117***
Hökmdarlar……………………………………….. ***118***
Ədalətli hökmdar…………………………………. ***119***
Solan gül…………………………………………… ***120***
Mündəricat………………………………………… ***121***

*Naşir:* ***Həsənov Niyazi Əkrəm oğlu***

*Redaktor:* ***Kamil Ağakişioğlu***

*Korrektor:* ***Almaz Eldarqızı***

*Kompüter yığımı:* ***Təranə Baxşəliyeva***

***Çapa imzalanıb .04. 2008. Kağız formatı 60x84 1/16.***
***Həcmi ç.v. Sayı ………... Sifariş .***

---

***" Iqtisad Universiteti " nəşriyyatı.***
***AZ 1001, Bakı, Istiqlaliyyət küçəsi, 6***

Həsənov Niyazi Əlikram oğlu 1958-ci ildə Salyan rayonunun Qarabağlı kəndində anadan olub. 1986-cı ildə Azərbaycan Dövlət Iqtisad Universitetini bitirib. 1990-cı ildə aspiranturanı bitirərək, Azərbaycan Respublikası Milli Elmlər Akademiyası yanında Iqtisad Institutunun ixtisaslaşmış Elmi Şurasında namizədlik dissertasiyasını müdafiə edərək, iqtisad elmləri namizədi elmi ada layiq görülmüşdür. 1995-ci ildən dosentdir. 2004-cü ildən doktorluq işi Azərbaycan Respubikası Prezidenti yanında Ali Attestasiya Komissiyasına təqdim edilmişdir.

O, 71 elmi əsərin, 3 dərs vəsaitinin, 1 monoqrafiyanın və 2 şeir kitabının müəllifidir.

Hacı Niyazi Həsənov 2003-cü ildən Azərbaycan Respublikası Yazıçılar Birliyinin üzvüdür.